Poemalar

MƏNİ BAĞIŞLAYIN...

Dolduqca insan yaşa,
Keçdikcə illər, aylar,
Sanki ötən günləri
Onu səslər, haraylar.

Yaxşı işi yad eylər
İnsan, üzü ağ olar.
Yaman işlər qövr edib,
Ürəyində dağ olar.

Yaman işlər...
Mənim də
Olub yaxşım, yamanım.
Bağışlayın siz məni,
Sizə gəlir gümanım;
Sapandla daş atdığım,
Yuxudan oyatdığım,
Döşünü qanatdığım,
Nəğməli, səsli quşlar,
Gözəl nəfəsli quşlar,
Bağışlayın siz məni!

Ölkəmi oymaq-oymaq
Dolaşmışam, gəzmişəm.
Çəmənliyə düşəndə,
Göy otları əzmişəm.
Çiçəkləri, gülləri,
Əl uzadıb üzmüşəm.
Sizdən bir xahişim var.

Ey üzdüyüm çiçəklər,
Tapdadığım göy otlar,
Bağışlayın siz məni!

Bahar üzə güləndə,
Çölə, düzə güləndə,
Hər yan ürək açanda,
Kəpənəklər uçanda,
Çox qovub incitmişəm
Tutub, candan etmişəm.
Ey xallı kəpənəklər,
Zavallı kəpənəklər,
Bağışlayın siz məni!

Müəllimim çox olmuş,
Hamısını sevmişəm.
İndi də bax, onları,
Yad eləməkdir peşəm...

Rast gəlirəm ara-bir
Bəzisinə küçədə.
Bəzisi güclə gəzir,
Qocalıbdır necə də...

Qoluna da girirəm
Keçən zaman küçəni,
Deyir – oğul, çox sağ ol,
Diyən incitdim səni.

Gülümsəyir ötəri
Əsir əli, ayağı.
Yenə də qarşısında
Mən bir uşaq sayağı
Dayanıram, dururam,
Boynumu da bururam.

Baxır mənə bu qoca,
Deyir: – xoşbaxt olasan,
Oğul, dünya durunca.

Tanımayır o məni
Yəqin tamam unutmuş.

Nə bilsin ki, sinifdə
Mən idim uçuran quş?
Nə bilsin ki...
... Bir səhər
Qar altındaydı şəhər.
Məktəb yolu enişdi,
Xizəklər işə düşdü.
Uşaqlar nə sürüşdü,
Uşaqlar nə sürüşdü!
Sürüşdükcə qar dönüb
Ayaq altda buz oldu.
Məktəb yolu elə bil,
Şüşə kimi düz oldu.
Belə görəndə buzu,
Yaman sevindik düzü.
Yoldan keçən bilməsin –
Deyə bu hiyləmizi,
Dedik qar səpək yola,
Qoy itsin buzun izi.
Buz üstə səpdik qarı
Tez çəkildik kənara,
Gizlənib göz yetirdik
Yol keçən adamlara:
Biri sürüşdü keçdi,
Biri mayallaq aşdı,
Biri yerə oturdu,
Ayaqları dolaşdı.

Sürüşdükcə adamlar,
Yıxıldıqca adamlar,

Biz gülürdük o ki var...
Sonra... çox yaman oldu.
Elə bil ki, bir anda
Hər tərəf duman oldu.
Nə edəydim gecdi, gec?!
Qışqıra bilmədim heç.
Kilidləndi dodağım,
Tərpənmədi ayağım.
Gözümü açan zaman
Gördüm müəllimimdir
Buz üstündə uzanan
Başında qan izi var,
Qar kimi bənizi var.
Göz açıb baxa bilmir,
Yerindən qalxa bilmir.
Tez başını sardılar,
Qaldırıb, apardılar.
Çox deyindi adamlar:
– Heç belə də iş olar?

Bilmirik nə oyundur,
Bilmirik nə peşədir?
Buz elə bil şüşədir.
Kim eləyib, bunu kim?

Üzümdə qəm,
Gözümdə nəm,
Dolanıram
Küçəni.

Gətirirəm
Xəyalıma
Bir-biri olub
Keçəni.

Niyə çıxdı
Əllərimdən.
Bu dəcəllik;
Bu xəta?

Görən həkim
Qaytararmı
Onu bir də
Həyata?

Keçir-gedir
Ətrafımdan
Qatar-qatar
Adamlar.

Heç kəs bilmir
Ürəyimin
Dağlar boyda
Dərdi var.

Gözlərimin
Qarşısında
Nə adamlar
Nə küçə...

Qar üstündə
Başı qanlı
Müəllimdir
İndicə.

Hara getsəm
Tutur sanki
Yaxamdan öz
Günahım.

Sakit etmir
Ürəyimi
Nə göz yaşım,
Nə ahım.

Bəlkə öldü,
Sağalmadı
Bu yaradan
Müəllim?

Bəlkə indi
Deyir, gülür,
Yaxşılaşır,
Nə bilim?

Bəlkə dönə
Bilməyəcək
O məktəbə
Heç vədə...

Min cür fikir
Dara çəkir,
Boğur məni
Get-gedə.

Günlər bir-bir ötüşdü,
Bir ay başa yetişdi.
Uşaqlar ara-sıra
Müəllimə dəydilər.
(Halım necə olardı
Sirrimi bilsəydilər?

Bir gün mən də qoşuldum
Onların cərgəsinə,
Mən də qoşdum səsimi
Onların şən səsinə.

Dərsdən sonra yığışdıq
Əlimizdə gül-çiçək,
Xəstə müəllimgilə
Getdik, ona baş çəkək.

Getdik... amma bilmədim
Yolu necə getmişəm.
Getdik deyə bilmədim
Amma "günah etmişəm..."

Müəllim görən kimi
Yaman güldü gözləri,
İndi də yadımdadır
Xoş sifəti, sözləri.

Dedi: – Oğul, keç əyləş,
Xoş gəlmisən sən bizə.
Sonra dedi: – uşaqlar
Çöldə qar çıxıb dizə.

Ehtiyatla gedin ha
Qarın altı buz olar...
Eşidincə bu sözü,
Əzab çəkdim o ki var...

İndi məni tanımır,
Unutmuşdur bu qoca.
Yenə məni tər basır
Qarşısında durunca.

İstəyirəm dil açım,
Tanıtdırım özümü.
Qəhər boğur, qoymayır
Söyləməyə sözümü.

İstəyirəm deyim ki,
Məndim düzəldən buzu...
Qoca deyir: – ay oğul,
Qoy olsun ömrün uzun!

İstəyirəm yalvarım,
Qarşısında çöküm diz,
Deyim: ey əziz insan,
Günahımdan keçiniz.
İtirirəm özümü,
Qəhər boğur, qoymayır,
Söyləməyə sözümü.

İndi dolmuşam yaşa
Keçənlərə çatmır əl.
Yoxdur mənə baş qoşan,
Töhmət edən "ay dəcəl!"

Amma yaxşı olardı
Kiçiləydim bir də mən,
Dönə-dönə öpəydim
Müəllimin əlindən

Əzabımı bilərdi
Göz yaşımdan, ahımdan,
Bağışlardı o məni,
Keçərdi günahımdan.

Gəlsə indi əlimdən,
Kiçilərdim bir də mən,
Hər ağacın, hər kolun,
Keşiyində durardım.
Çox heyvana, çox quşa,
Özüm yuva qurardım.

Gəlsə idi əlimdən
Kiçilərdim bir də mən,
Xoş bir bahar günündə
Diz çökərdim bu gözəl
Təbiətin önündə,
İnsanların önündə,
Deyərdim: – günahlarım
Olmuş, əgər şübhəsiz,
Bağışlayın, məni siz!
Bağışlayın, məni siz!

"İÇƏRİŞƏHƏR"

Mən İçərişəhərdə
Yetmişəm boya, başa.
Bələdəm hər ağaca,
Hər küçəyə, hər daşa.

İçərişəhər dedim,
İllərin yadigarı,
Orda hər ev, hər qala
Xalqımızın vüqarı...

Yeni mənzilimizdə
Yaşasam da rahat, mən,
İçərişəhəri heç
Unuda bilmirəm mən.

O yerdə ki, böyüyüb
Boya-başa çatmısan,
Orda ki, çox gecəni,
Çox gündüzə qatmısan,
Orda ki, beşik asmış,
Layla söyləmiş anan,
Çıxarmı heç insanın
Əzəl yeri yadından?

Bax, keçir xatirimdən
Yenə də pərdə-pərdə
Yıxıldığım, qalxdığım,
Darısqal küçələrdə...

Burc üstü, su ovdanı,
Məşhur Xıdır dalanı,
Bir də o "Sınıq qala"
Gözümün qabağında
Dilə gəlir az qala.
Deyirlər: "nə oldu, sən,
Bizdən üz döndərmisən?"

Yox mən üz döndərmədim
İçərişəhərimdən.
Bir an belə olmaram,
Köçəri, şəhərimdən.

Azərbaycan elimdir,
Bakı, yuvam, məskonim.
Gilavarı, xəzrisi
Nəğməm, səsimdir mənim.
Babam göz yaşı tökmüş
Axan Kürə, Araza.
Yüz illərlə yaşaram,
Dərya kimi coşaram,
Kəpəzdən gələn külək
Tellərimi darasa...
Ürəyimdə Şuşanın
Bu havası hər an var.
Mənə vüqar gətirir
O, başı qarlı dağlar.
Necə deyim Lənkəran,
Nuxa, Quba, Şamaxı,
Mənə əziz deyildir?
Qədim Azərbaycanın
Mən də oğluyam, axı!

Deyirəm ki, uçmuşam
Köçəri bir quşam mən.
İçərişəhərimdə
Axı, doğulmuşam mən.

Hər naxış bir ustanın
Əməlidir, işidir.
Daş üstündə hər yazı
Xalqımın keçmişidir.

İçərişəhərimdə
Hər küçə, hər ev, qala
Çəkir, çəkir aparır
Bəzən məni xəyala:

... Daşlar qalaq-qalaqdır
İnsanlar axın-axın,
Toz torpağa bulaşmış
Fəhlələr gəlir yaxın.

Xan, əliylə göstərir
Təpəlikdə bir yeri,
Deyir: – burda salınsın
Dövlətimin şəhəri.
Sinə açıq, baş açıq,
Daş yonur, təməl qoyur
Usta, əlində palçıq.
Evdə uşaqları var
Bunun xana nə dəxli?
Ac-yalavacdır onlar,
Bunun xana nə dəxli,
Daş ağır, bina uca,
Bunun xana nə dəxli?
Qaldıra bilmir qoca
Bunun xana nə dəxli?
– Su yoxdur palçıq tutam
– Tər axıt, tərinlə tut!
– Bir qırpım olmaz yatam.
– Onu, bir yolluq unut!
– Karxana çox uzaqdır
Kənəkdir daşın yeri,
Ya xan, can sənə qurban,
Batman gəlir hər biri.
– Sürün, yeri, imələ,
Gətir, daşı palçığı!
Yer titrər, tufan qopar,
Tutsa xanın acığı!

Əyan nadan, xan nadan,
İnsanlar qul doğulmuş
Məyər başdan binadan?
Əmr eləyən beş nəfər,
Əzab çəkən el-elat

Qarnın ac, bədənin tər,
Sən onlarçın qur, yarat!
Palçıq tutub tərinlə,
Qabarlı əllərinlə
Daş daşı, suvaq daşı,
Olsa sinən, kürəyin
Baxma ki, dalaq, daşı!
Xan əmridir, şəhər sal,
Minarəli, qalalı.
Ey qızıl əlli usta,
Sən ey başı bəlalı!
Barmaqların bəzədi
Divarları, tağları,
Yad kimi gəzdin, amma,
Tikdiyin otaqları.

Minarələr ucaldı
Başı buluda dəydi,
Zaman sənin qəddini
Bir çubuq kimi əydi.

Ölkələri dolandı
Daş üstündə hər yazın,
Sən insan sayılmadın
Önündə bir qanmazın.

Xəbər gəldi bir səhər:
Çoxdur xanın düşmanı,
Sübhə kimi gecələr
Dincəlmək bilmir, canı.

Səni xan hüzuruna
Gətirdilər bu səhər.
Min bir naxış tökdüyün,
Əllərinlə tikdiyin,
Otağı bürümüşdü
Al xaralar, tirmələr.

Sən Xəzər sahilində,
Azərbaycan elində
Daşı torpağa qatdın,
İmarətlər yaratdın.
Bakımızı əllərin,
Dırnaqlarınla qurdun.
Amma zülmkar xanın,
Hüzurunda ey usta,
Qolları bağlı durdun.
Çalışdın, od yurduna
Sadiq bir oğul kimi,
Qarşıladı xan səni
Qolu bağlı qul kimi.

Sorğu-sual almadı,
Qısa bir əmr etdi xan:
– Sahilədək yeraltı
Yol çəkilsin buradan!
Düşmən güc gəlsə bizə,
Bu yolla sağ-salamat
Çıxa bilim dənizə!
– Sən ey xanların xanı,
Məndə o cürət hanı?
Şahiddir ki, yaradan,
Sahilədək buradan
Qayadır başdan-başa,
Balta işləməz daşa...
Bir də, mənzil uzaqdır
– Yol çəkilsin!
– Bu ağdır...
– Çəkilməsə, bil, başın,
Səhər vurulacaqdır!

Ömür ağır, gün qara,
Cəllad qapı dalında.
Camaat qan ağlayır,
Xan öz cah-cəlalında.

Sən, ölümü seçərdin,
Bilirəm, usta, ancaq,
Gözlərinin önündə
Dayandı oğul, uşaq.

Sən başını qaldırıb
Xana dedin: – baş üstə...
İllərlə tər axıtdın
Qaya üstə, daş üstə...

Xəzərin sahilində
Bir gün işığa çıxdın,
Sən günəşin üzünə
O gün həsrətlə baxdın.

Qayaları yaranlar,
Yer altında qalanlar...
Hesabı yox, sanı yox
Heç birinin canı yox.

Min insanın bir anda
Həyatı getdi bada,
Təki xan rahat-rahat
Nəfəs alsın dünyada.

O axşam qorxu aldı
Hökmüdarın canını.
Topladı məşvərətə
Xan, bütün əyanını.

Dedi: – ölənlər ölüb,
Qalan ustadır ancaq.
O, yaşasa ürəyim,
Heç rahat olmayacaq.
Əvvəli, memardır o,
Böyük sənətkardır o.
Usta yaşarsa əgər,
Gedər, başqa bir xana
Belə bir şəhər tikər...

Əyanlar baş əydilər,
Dedilər: – bəli, bəli,
Onda əmr eləsin xan,
Kəsilsin iki əli...
Xan dedi: – ölsün gərək!
Gizli yolun sirrini
Bircə özümüz bilək.
Sevməyir memar bizi,
Qorxuram ki, gün gələr,
Düşmənə satar bizi!

Deyirlər ki, o gecə
Xəzər yaman ağladı,
Dalğalar aşdı, daşdı,
Sahili qucaqladı.

Deyirlər ki, o gecə
Xəzri tufan qopardı,
Ustanın fəryadını
Uzaqlara apardı...

Deyirlər ki, o gecə
Ürəyində qəm dağı,
Gözlərinin önündə
Bir də oğul, uşağı,
Memar, dar ağacına
Gəldi başı aşağı...

... Mən, İçərişəhərdə
Yetmişəm boya, başa.
Bələdəm hər döngəyə
Hər küçəyə, hər daşa.

Günlərlə dolaşmışam
Küçələri mən azı,
Bir tarix söyləmişdir
Daş üstündə hər yazı.

Evimiz alçaq, qədim,
Binalardan biriydi.
Bəlkə bura memarın
O böyük sənətkarın
Öldürülən yeriydi?

Bəlkə buraya axmış
Onun müqəddəs qanı?
Bəlkə bu yerdə memar
Ürəyində arzular
Demiş abad eləyim
Anam Azərbaycanı?

Bəlkə haman bu yerdə
Babalarım töküb tər,
Salıb Bakı adında
Əzəmətli bir şəhər?

Ona görə alçaq ev,
Ona görə dar küçə,
Bilsəniz ki, mənimçün
Necə əzizdir necə!

Hər daşı, hər kərpici
Babalardan xatirə.
Mən borcluyam bu yerə.
Mən bağlıyam bu yerə!

Doğrusu, bir ovucdu
Otağımın tutarı.
Orda keçirmişəm mən
Qırx qışı, qırx baharı...

İndi evim şəhərin
Ən gözəl bucağında,
Uşaqlarım boy atır
Güllərin qucağında.

Otaqlarım bol, geniş,
Məhəlləmiz tər-təmiz.
Solumda yam-yaşıl bağ,
Sağımda göm-göy dəniz.

Küçəmizdə çinarlar
Sanki verib baş-başa...
Mən, İçərişəhərdə
Amma dolmuşam yaşa.

Qınamayın, ey mənim,
Alçaq evim, dar küçəm,
Sizin xəyalınızda
Keçir çox günüm, gecəm.

Qınamayın siz məni,
Söyləməyin köçəri.
İndi gözəl Bakıda
Nə bayır, nə içəri?

Dünən evciyəzimi
Dağıtdılar fəhlələr,
Gözümün qabağından
Ötüşdü keçən illər.

Gözümün qabağında.
Qaranlıq, dar otağım,
Olundu dağım-dağım,
Gözümün qabağında.
Qırx il enib düşdüyüm,
Üstündə əyləşdiyim,
Əyri-üyrü pillələr
Söküldü birər-birər,
Gözümün qabağında.
Yatdı daxmamın damı,
Gördum qoca anamı,
Gözümün qabağında.

Gözlərim yaşardısa,
Vüqarım, dağa döndü,
Bir anda əziz Bakım
Yam-yaşıl bağa döndü,
Gözümün qabağında.

Daxmaların yerində
Qalxdı binalar göyə,
İçərişəhərlilər
Axışdılar küçəyə,
Gözümün qabağında.

Qoca qala divarı,
Xalqımızın vüqarı,
"Şəşalı" da, "ovdan" da,
Cavanlaşdı bir anda
Gözümün qabağında.

Bir gün küçəyə çıxdım
Qarşılayım baharı,
Gözəl Bakıma baxdım,
Gördüm qoca Memarı,
Gözümün qabağında.

Keçib yüz-yüz bahar, qış,
Yenə ana torpağı
O gəzir qarış-qarış,
Gözümün qabağında.

O gəzir Bakımızı,
Qara gözlü, xoş üzlü
Görür oğlanı, qızı,
Deyir: – nəvələrimdir!
Bu torpaqda gül açan
Mənim alın tərimdir,
Mənim əməllərimdir.

KARVAN GEDİR...

Yəqin tanıyırsınız
Şamaxını, uşaqlar,
Onun qədim, çox qədim
Tarixlərdə adı var.

Bu torpağa o zaman
Gözəl Şirvan demişlər.
Onu bir yol görənlər
Olar heyran, demişlər.

Bağlarının barına,
Dağlarının qarına,
Şır-şır bulaqlarına,
Cana dərman demişlər.

İpəyi düşmüş dilə,
Evləri batmış gülə,
Şirvandan neçə elə –
Gedir karvan, demişlər.

Belə Şirvandı Şirvan,
Uca dağlar içində,
Zümrüd rəngə çalardı
Yaşıl bağlar içində.

Dəvələr yorğun-arğın,
Dəvələr qatar-qatar,
Sarvanlar gecə-gündüz
Nə dincələr, nə yatar...

Bir tuluq su götürür
Bir aylıq yola sarvan.
Baxır göydə ulduza,
Yerdə hər kola sarvan.

Şirvan qalır arxada,
Qarşıda çöl, dağ, dərə,
Karvan qum səhrasında
Baş alır yad ellərə.

Dəvələr lökküldəyir,
Karvan hara tələsir?
Şirvanın nemətini
Gözləyir İraq, Misir.

Hindistandan, İrandan
Eşidilir sorağı,
Yaxşı pula satılır
Şirvanın hər növrağı.

Tacir imarətində
Gözəl eyvanındadır,
Onun fikri, xəyalı
Mal-dövlət yanındadır.

Başı bəlalı sarvan,
Evdən aralı sarvan,
Özü yollardadırsa,
Canı Şirvanındadır.

Qum dənizi narındır,
Qumlar necə harındır?!
Qum da , mal da, cahan da
Sanki varlılarındır.

Qumlar hücum eləyir
Yollara dalğa-dalğa.
Sarvan, bəlalı sarvan
Yenə düşür qabağa.

Ətrafa salır nəzər
Nə yol vardır, nə koma.
Ağır yüklü dəvələr
Ləkləyir, batır quma.

İrəlidə gedənin
Enir, qalxır sinəsi,
Xəbər verir sarvana
Boğuq zınqırov səsi.

Mənzil uzaq, yük ağır,
Göydən od-alov yağır,
Nə çəkmədin, ey fağır,
Sən Şirvandan çıxalı?

Bir içim suya həsrət,
Şirin yuxuya həsrət,
Elə, obaya həsrət,
Sən Şirvandan çıxalı.

Yanır dilin, dodağın,
Qabar salıb ayağın,
Acdır oğul-uşağın
Sən Şirvandan çıxalı.

Dəvələrə nə var ki,
Bir qırpım tikan bəsi!..
Sarvanın tuluğu boş,
Çörəksizdir heybəsi.

Eybi yox, qul olsa da
Sarvan, xana, əyana,
"Oğlum çıxarar məni
Bir gün bəlkə bir yana".

Ürəyindən keçənlər
Göydə ulduz qədərdir,
Hər qaranın ağı var,
Pis gün gəldi-gedərdir.

Sarvan Məmməd güc verir
Qabarlı ayağına.
Düşür qəmli, kədərli
Karvanın qabağına...

Dülgərlik eləyərmiş
Məmməd Şirvandan əvvəl.
Bir külfətin çörəyi
Çıxmazmış, dolan di gəl!

İndi sarvan olubdur,
Yol göstərir karvana.
Deyir Əfzələddinim
Çıxsın təki bir yana.

Onun ciyərparası,
Gözlərinin qarası,
Yaman diribaş imiş,
Uşaqların içində
Əfzələddin baş imiş.
Məmməd kişi hər səhər,
Dolanmaqçın bir təhər
Gah taxta daşıyırmış,
Gah pəncərə hörərmiş,
Gah dülgərlik eləyib,
Çətin işlər görərmiş.
Gecə-gündüz töküb, tər,
Salarmış öz qırdığı
Ağaclardan körpülər.
Beləcə ötmüş illər
Söyləyirlər, deyirlər
Ki, bu dülgər Məmmədin,
Həyatı ağır, çətin
Olsa da dözmüş buna,
Çalışmış elm oxutsun,
Öz istəkli oğluna.
Almış ona çox kitab,
Öyrətmiş yazı, hesab.
Əfzələddin hər səhər
Doğmamış günəş hələ,
Axtararmış özünə
Maraqlı bir məşğələ.
Yenə bir səhər erkən

Uşaq qalxıb yerindən
Getdi bulağa sarı.
Yuyunaraq tərtəmiz,
Gördü ki, çöllər təmiz,
Qəşəng-qəşəng gül açmış.
Sarı bülbül, gül üstə
Şirin-şirin dil açmış.
Birdən bu vaxt uzaqda
Toz qopdu, göyə qalxdı,
Uşaq təəccüb ilə
Dayandı, baxdı, baxdı,
Gördü ki, bir dəstədir,
Hamısı yar-yaraqlı.
Hamısı zər geyimli,
Hamısı şələ bığlı,
Nizəli, narın atlı,
Atları yel qanadlı...
Uşaq getdi xəyala.
İstədi dönsün daha,
Sonra dedi: "Dayanım,
Öyrənim kimdir gələn?
Cəlalından görünür,
Padşahdır mən bilən.
Dar ağacı qurmağa
Yenə də baş vurmağa
Deyən gedir Şirvana!
Uşaq baxdı dörd yana,
Hündür bir yerə qaçdı,
Kəmərini tez açdı,
Sonra da qorxa-qorxa
Sevdiyi kitabını.
Atıb bir susuz arxa,
Üstünə qoydu nişan
Halı oldu pərişan.
Gizlədib kitabları,
Qayıtdı yola sarı.
Gəlib çatdı atlılar,
Atı yel qanadlılar.

Atlar qızıl yəhərli
Yüyənlər simuzərli,
Əllərdə tunc nizələr,
Dağa vursan dağ dələr.
Qılıncları sərbəsər
Tutulmuş cavahirə.
Atlılardan bir nəfər
Görüb Əfzələddini
Dedi: – Oğlan yaxın gəl!
Uşaq özü-özünə
Dedi: "Çatıbdır əcəl?..
Yaxın gəldi atlıya,
İtirmədi özünü,
Baş əyib yerə kimi
Belə dedi sözünü:
– Salam, şahlar şahına,
Yerlərin Allahına!
Uşağın cürətinə
Şah təəccüb eylədi,
Sonra da mehribanca
Ona belə söylədi:
– Adın nədir, ay oğul?
– Müzəffərdir, padşahım,
Yaranmışam sənə qul.
– Yaxşı, bəs sizin kəndə
Bir yad qonaq gələndə
Kimlər açır darvaza
Çıxır onu pişvaza?
– Şah bilməyirmi məgər
Kəndə gələrsə qonaq,
Onu hamıdan qabaq
Qarşılayır köpəklər?..
Bu söz şahlar şahına
Yaman eylədi təsir,
Dedi: – Yaxşı qulaq ver,
Sualıma, anla bir!
Kəndinizdə hamıdan
Böyük olan varmı? – Var...

Məlumdur ki, dəvələr
Hamıdan böyük olar.
Şahın qızdı gözləri,
Hirsdən əsdi dizləri,
Dedi: – Tifilin biri,
Buna bax, lağa qoyur
Məğrur bir cahangiri!
And olsun bir allaha,
Bir, batsam da günaha,
Çıxarıb qılıncımı
Çaparam inan səni!
– Şah sağ olsun, bağışla,
Saxladım yoldan səni.
Dünya qara bağlamaz,
Çapılarsa bir uşaq.
Yoldaşların düşüblər,
Görürəm səndən uzaq,
Yaxşısı ki, atını –
Çap onlara çat, şahım.
Sən adilsən, yanında
Bağışlanar günahım.

Şah gördü ki, uşaqda
Ağıl dərya qədərdir,
Onu qorxuya salmaq,
Nahaq işdir, hədərdir.
Dedi: Oğul, olma tərs,
Sözlərimə as qulaq,
Kimdən almısan ki, dərs,
Diribaşsan bu sayaq?..
De bir mənə şəhərin
Kimlərdir ağsaqqalı?
İndi anladınmı sən
Soruşduğum sualı?
Uşaq dedi ki: – Aha,
Qurbanam padşaha,
Soruşsaydı əzəldən
Bunu belə aşikar,

Hamısını birbəbir
Söyləyərdim nə ki, var.
Bu söz şahı çox açdı,
Güldü, dodağı qaçdı.
Əl ataraq kisəyə.
Dedi: – Bilmə gedibdir
Söhbətimiz nisiyə.
Olsun bu ağ abbası
Sözlərinin bahası.
Uşaq dedi: – Almaram,
Lazım deyil mənə pul.
Şah dedi: – Al! deyirəm,
İnad etmə adam ol!
Uşaq dedi: – Almaram,
Yoxsa pis olar işim.
Atam deyər: abbası
Olarmı şah bəxşişi?".
Şah yenə də hirsləndi,
Qəzəblə baxdı ona,
Sonra çəkib atını,
Düzəldi öz yoluna.
Şah yetişdi Şirvana,
Bütün öz işlərini,
Salan kimi səhmana,
Uşaq yadına düşdü.
Hər kəslə ki, görüşdü,
Onu soruşdu, sordu.
Axtardı qarış-qarış,
Gəzdi obanı, yurdu
Tapılmadı Müzəffər,
Şah dedi: – Bilin, əgər
Axşamacan gəlməsə,
Haman o uşaq bura,
Bütün ağsaqqalları
Çəkdirəcəyəm dara!
Əfzələddin eşidib
Padşahın bu sözünü,
Yüyürüb meydançaya,

Tez yetirdi özünü.
Əyilib öpdü yeri,
Dedi: – Şahım, bu sirri
İcazə ver, açım mən,
Şah dedi: – Söylə, oğlan,
Müzəffər sən deyilsən?
– Xeyir, şahım, bir xəta
Çıxdı mənim dilimdən.
Gördüm yol üstündəsən,
Başında ləşkər, qoşun,
Dedim Müzəffər desəm,
Bu sözdən gələr xoşun.
Çünki yürüşdə hərgah
Zəfər sözü eşitsə
Ya bir xaqan, ya bir şah,
Qalib dönər vuruşdan.
Zəfər qazanar hər an,
Adımdır Əfzələddin
Oğluyam bir rəiyyətin.
– Söylə, bunda nə sirr var,
Çıxıb sən yoldan kənar
Gizlətdin bilmirəm nə...
Yola qayıtdın yenə?
Uşaq dedi: – Padşah,
Deyim, sirrdən ol agah,
Şah dedi: – Söylə, söylə!
Uşaq söylədi: – Şahım,
Ey mənim qiblegahım,
Bu dünyada nə ki var:
Yerlər, sular, adamlar –
Hamı sənin qarşında,
Əyilir yerə kimi.
Sənsən bizim ölkədə
Bəndələrin hakimi.
Bunu bilirəm mən də,
Ancaq o vaxt qoşunla,
Sən uzaqdan gələndə
Anladım ki, mən gərək

Qabağına gələrək,
Rəsmi-ədəblə birbaş
Salam verim, əyim baş.
Nə edim ki, o anda,
Mən yol üstə duranda,
Yanımda kitab vardı,
Dostumdan yadigardı.
Bir kitab ki, içində
Dünyanın var açarı,
Onun hər bir kəlməsi
Heyran edir şahları.
Bir kitab ki, içində
Sirri var hər hikmətin,
Onunçun hər biliyi
Açmaq deyildir çətin.
Haman kitabın yeri
Göylərdən də qəlbidir,
O kitabda yaşayan,
Bir alimin qəlbidir.
Odur ki, görən zaman,
Şahım, səni uzaqdan,
Kitabı qorxa-qorxa,
Qoydum susuz bir arxa
Sonra qayıtdım yenə –
Ki, baş əyəndə sənə,
Mənimlə əyilməsin,
Qabağında kitab da.
Çünki şahdan da böyük
Bir məna var kitabda.

Eşidib bu sözləri,
Şahın qızdı gözləri,
Söylədi: – Bu uşaqda
Dərya qədər ağıl var,
Bu camaat içində
Bilirəm ki, zay olar.
Öz evindən qoparın,
Tez, saraya aparın!

Qocalar yalvardılar,
Qarılar baş açdılar,
Əyanlar bu uşağı
Götürdülər, qaçdılar...

... Məmməd düşüb qabağa
Hey çəkir dəvələri,
Batır toza-torpağa,
Şirvandan yox xəbəri.

Bilməyir ki, oğlunu
Apardılar saraya,
Bilməyir indi Şirvan
Bürünübdür qaraya.

Bilməyir ki, şah onu
Qorxusundan apardı,
El oğlunu zor ilə
El içindən qopardı,

Dəvələr qatar-qatar,
Ulduzlar çıraq-çıraq,
Qarşıdasa hələ var
Neçə səhra, neçə dağ.

Ah, bu tikan kolları,
Ah, bu karvan yolları,
Görən nə vaxt bitəcək
Nə zaman qurtaracaq?!

Ürəyində xəyalı
Bax, o başı bəlalı
Yol göstərir karvana,
Çıxmaq üçün bir yana.

QONAQ

Bulaqlı adlı
Bir dağ başında
Balaca kənd var.
İlin yazında,
İlin qışında
O gözəl olar.
Altından axır
Dəli dağ çayı.
Kəsilmir bir an,
Səsi, harayı.
Sıx meşəlikdir
Kəndin dörd yanı.
Gəzsən dünyanı,
Belə yer hanı?

Çəndən, dumandan
Yorğanı vardır.
Dağı-dərəsi,
Yarğanı vardır
Sərhəd kəndidir
Bu balaca kənd.
Suları buzdur,
Meyvələri qənd.
Burda böyüklər,
Yaman sayıqdır.
Burda kiçiklər,
Qazdan ayıqdır.
Dəli çayda bir
Körpü var ancaq,
Çoxdandır ona
Dəyməmiş ayaq.
Sərhəd bu qədim
Körpüdən keçir.
Elə bil çayı
Yarıb, tən keçir.

Yenə qar yağır,
Hər yan qapqara.
Külək səhərdən
Verməyir ara.

Yuxudadır kənd,
Yatmışdır hamı.
Qar altındadır
Evlərin damı.

Nə səs-səmir var,
Nə işıq gəlir.
Şiş bacalardan
Tüstü yüksəlir.

Kəndin başında
Tək evə bax sən.
İşıq süzülür
Pəncərəsindən.

I

Gecə keçib yarıdan,
Od düşüb buxarıdan,
Yenə körpü sarıdan
Əsir bərk külək.

Masa arxasında bax,
Oturmuşdur bir uşaq.
Ona mane olmayaq,
Fikrə gedib tək.

Bəzən çatılır qaşı,
Bəzən əyilir başı,
Nədir kiçik Dadaşı
Belə incidən görək.

Məktuba bir bax,
Qalaq-qalaqdır,
Saya da gəlməz –
Neçə varaqdır...

Götürür, baxır,
O bircə-bircə.
"Yaman gödəlir,
Deyəsən gecə!"

Sabah yazıdan
Beş alsam əgər,
Bu, lap mənimçin
Dünyaya dəyər.

"Mənim atam"dır
Yazının adı.
Bəlkə yazdığım
Yaxşı olmadı?!
Yox, yox ay Dadaş,
Xəyala getmə
Gözlərində yaş.
Sənin atan tək
Namuslu, zirək,
Atası olsun
Hər uşağın kaş.
Bilirəm ki, mən,
Gəlsə əlindən,
Gəzib dünyanı,
Eli, obanı,
Çay tək daşarsan,
Dağlar aşarsan,
Ararsan onu.
Hər gördüyündən
Sorarsan onu!

Bilirəm ki, mən,
Gəlsə əlindən
Əgər ay Dadaş,
Ata sevgisi
Doğma elindən
Qoparar səni,
Cəbhəyə birbaş
Aparar səni.
Milyon əsgərin

Arasında sən,
Ata! deyərsən,
Ararsan onu!
Hər gördüyündən
Sorarsan onu!
Atan zirəkdi,
Bu kənddə təkdi.
Onun gücünə
Tay olmamışdı,
Onun atdığı
Zay olmamışdı.
Bilirəm ki, mən,
Almış əlindən
Onu cəbhələr.
Qəlbini sıxma,
Oğul darıxma,
Qayıdıb gələr!
Bax qarşındakı
Bu məktublara,
Hər sualına
Min cavab ara.
Sabah atandan
Cəsarətlə yaz,
Məhəbbətlə yaz!
Öz atasını
Sevən bir uşaq
Əsla unutmaz!
Sənin tək qoçaq,
Fəxr edər ancaq!

II

– Salam, el oğlu!..
Durdu yaralı.
Elə bu zaman
Ondan aralı
Kolun dalından
Bir əsgər çıxdı,
Tez yaralının
Əlini sıxdı.

– Xoş gördük!
– Salam!
– Haraya belə?
Deyən cəbhədən
Dönürsən elə?
– Elədir ki, var.
Aman vermədi
Yara zəhrimar.
– Düzələr əşi.
Elə belədir
Dünyanın işi.
Yenə şükr elə
Sağ-salamatsan.
Ordan qayıtmaq
Heç deyil asan.
– Elədir bəli...
(Yaralı ona
Baxır şübhəli)
Soruşur: – Bəs sən,
Hardan gələnsən,
Hara gedənsən?
Əsgər bir anlıq
Tez fikirləşir.
Papiros eşir,
Deyir: – Bu kəndə!
Sənin kimiyəm.
Eloğlu, mən də.
– Bulaqlıyamı?
– O kəndə, bəli...
Nələr törətmir,
Düşmənin əli!
Şükür olsun ana
Torpağındayam.
Bir dost evinin
Sorağındayam
– Kimdir o dostun?
– Rəhmətlik Səfər...
Cəsur bir əsgər!

(Yaralı birdən
Dim-dik atıldı
Durduğu yerdən).
Dedi: – Kimi var
Bəs Bulaqlıda?
– Eh, dostum, kişi
Gedəndə bada.
Can verib dedi:
– Oğlum Dadaşdır,
Dərdi qəlbimdə
Ağır bir daşdır.
Sonra çevirib
Mənə üzünü,
Söylədi yazıq
Axır sözünü.
Dedi: – Salamat
Çıxsan davadan,
Sən Dadaşıma
Hayan ol, hayan.
Axtar, tap onu
Cəbhə dostunun
Yetim oğlunu.
Odur, düşmüşəm
İndi yollara.
Canım, mən hara
Bu dağlar hara?!
Yaralı əsgər
Dedi: – Min yaşa!
Nə gündə yarar
Yoldaş-yoldaşa?
Yazıq, gör nələr
Çəkmişdir başı!
Birdən söyləmə
Görsən Dadaşı.
– Uşağam məgər?
Yaralı əsgər
Dedi: – Bəs Səfər
Çoxdanmı getmiş

Söylə rəhmətə?
– Eh... Nə deyim mən
Bu təbiətə!..
Çoxdan deyildir,
Altı ay olar.
Vuruşmadaydı
Bizim alaylar.
O kişi öldü,
Mən də...
– Sən necə?
– Dəydi qolumdan
Güllə bir gecə,
Çıxdım aradan.
Əsər qalmayıb
İndi yaradan.
Ancaq Səfərin
Dərdi ağırdır.
Min bir yaradan
Yaman ağrıdır.
Yaralı əsgər
Dedi: – Səbr elə
Dünyanın işi
Belədir, belə...
Gedib görərsən,
Ürək verərsən.
Arxasında var
Sənin tək əmi,
Onun nə qəmi?
Beləcə onlar
Kəndə girdilər.
Axşam düşmüşdü,
Qarışmışdı şər.
Yaralı əsgər
Dedi: – Eloğlu,
Hələ mən gedim
Gərək bu yolu.
Sən gəlib çatdın.
Bulaqlıdasan.

Mənimsə işim
Deyildir asan.
Qonşu kənddənəm
Di, salamat ol.
– Xoş gəldin, dostum
Sənə yaxşı yol...

III

– Ay ev yiyəsi,
Ay ev yiyəsi...
Dadaş otaqda
Eşidir səsi.
– Kimsən ay əmi?
– Bala bayaqdan
Yordum çənəmi
Gəlib çıxsana...
– Buyurun əmi,
Keçin eyvana,
Haradan belə
Bu axşam çağı?
– Belə qarşılar
Adam qonağı?
Bitib qurtarmır
Bu yol zəhrimar;
Evdə özünsən,
Yoxsa adam var?
– Təkəm. Məgər mən
Adam deyiləm?
Adamsan, yenə
İstədim biləm...
Deyəsən adın
Dadaşdır...
– Dadaş!
– Yaxşı gəlmişəm
Deyəsən birbaş.
– Hardan gəlirsən,
Əmican?
– Dayan...

Xəbər var sənə.
Kimdən?
Atandan.
– Atamdan? Xəbər?
Qardaşım Səfər...
Yox, qardaş oğlu,
Otağa keçək.
Sözüm-söhbətim
Uzun çəkəcək...
Tamam özünü
İtirdi uşaq.
"Xəbər gətirmiş
Atamdan qonaq
Adımı çəkdi,
Heç deməmiş mən.
Dedi xəbər var
Sənə Səfərdən".
– Buyurun əmi,
Qızının barı...
Qonaq üstündən
Çırparaq qarı,
Girdi otağa.
Diqqətlə baxdı
O, sola-sağa:
– Anan hardadır
Soruşmadım heç?
– İş üstündədir
Evə dönür gec.
Sarı inəyi
Nədənsə bu qış,
Bərk naxoşlamış
Onun yanında
Olur hər gecə.
Əmican, danış
De görüm bircə
Atam...
– Səfərdən,
Oğul bir xəbər

Gətirmişəm mən..
Sağmı?..
– Dayan bir!
Mənim də qəlbim
Daşdan deyildir.
– Ölübmü?
– Gözlə!
Demək olmayır
Ay bala, sözlə.
Bir az yaxın gəl...
Altı ay əvvəl
Bir axşam çağı
Daşı-torpağı
Sovurdu düşmən.
Qardaş olmuşuq
Atan ilə mən.
Batıb palçığa,
Torpağa, quma,
Keçdik hücuma.
Çiyin-çiyinə
Getdik bir qədər.
Bir də nə gördüm?
Qardaşım Səfər,
Yıxılmış yerə,
Qan içindədir.
Dedim: – Bu nədir?
Dedi: Qardaşım,
Gözləyir məni
Oğlum, Dadaşım!
Ölsəm əmi tək
Hayan ol ona
Cəbhə dostunun
Yetim oğluna...
– Tez deyin, əmi,
Sağdır, yaşayır
Atam, eləmi?
– Yara ağırdı...
Dadaş! Qışqırıb

Səni çağırdı...
Sonra?
– Nə deyim, indi?
Dizimin üstə
Kişi keçindi...
Dadaş çığırdı,
Haray qopardı.
Onun dağ boyda
Bir dərdi vardı.
Qonaq bağrına
Basdı Dadaşı,
Uşağın üstə
Əyildi başı.
Nəsihət etdi,
Ürək də verdi:
– Unut, – söylədi –
Oğlum, bu dərdi.
Maşallah, daha
Kiçik deyilsən,
Mən də burdayam,
Hər nə istəsən
Mümkündür ancaq.
Ağlama nahaq.
Bir az səbr elə.
Sözə qulaq as.
Dur, geyin gedək,
İşim var bir az,
– Nə iş? Anama,
Xəbər aparaq?
– Yox, oğlum, bayaq
Bura gələndə
İtirdim yolu,
Bir az şey-şüylə
Əllərim dolu.
Gedib çıxmışam
Birbaş körpüyə...
– Necə, körpüyə?
Əmican, niyə?

– Nə bilim əşi,
Düz gəlməyəndə
Adamın işi,
Lap körpüdən də
O taya düşər.
– Orada adam
Yox idi məgər?
– Adam?
Bəs necə?!
– Orada adam
Nə gəzir gecə?
– Siz ki, gələndə
Gecə deyildi?..
– Sorğu-suala
Çəkirsən indi?..
Vallah, ay Dadaş.
Qoçaqsan, qoçaq.
Səndən bir böyük
Adam olacaq.
Ayıq ol, oğlum,
Həmişə belə.
Bir də görərsən
Tutarlar dilə,
Nə bilim, bu çay,
Dərindir, dayaz?
O taya üzmək
Olar, ya olmaz?
İtləri varmı,
Atları varmı?
– Demək olarmı?!
– Əlbəttə olmaz!
Dediyim budur,
Ay oğul, bir az
Ayıq olasan.
– Məndən söz almaq
Deyildir asan.
– Bax bərəkallah!
– Bəyəndim səni.

Söhbətə verdik
Bütün gecəni
... Hə oğul, birdən.
İtirdim yolu.
Hədiyyələrlə
Əllərim dolu.
Gedib birbaşa
Körpüyə çıxdım.
O yana baxdım,
Bu yana baxdım.
Dedim ki, vallah
Şeytan işidir,
Şübhələnərlər
Bu yad kişidir,
Tutub elərlər
Elə bir təhər
Basdırdım qarda
Hədiyyələri.
Dedim sənlə
Dönərəm geri,
Dur, geyin...
– Ancaq...
– Nə ancaq? Tələs!
– Ancaq anama
Söyləməyim bəs?
– Yox, nəyə lazım
Salaq dad-bidad?
Evdə hər şeyi
Bilməz ki, arvad?
– Onda ki, belə
Tələsirsiniz,
Bir az gözləyin
Məni evdə siz.
Bir dostum vardır
Sərhədçi Petro.
Çox igiddir o,
Söyləyim ona,
Əmi, bu sözu.

Bizi körpüyə
Aparar özü.
Rahat, salamat,
Gətirrik geri
Hədiyyələri.
– Yox qardaş oğlu,
Bu da olmadı.
Adı nədir? O
Sərhədçi Petro?
Nə bilsin orda
Bombadır, şəkər?
Sonra o yana –
Bu yana çəkər.
Yaxşısı budur
Özümüz gedək.
Tezkən şeyləri
Çəkib gətirək.
– Geyinim, gəlim.
Dedi qonağa,
Keçdi tez Dadaş
Qonşu otağa.
Qonaq sevindi,
Qımışıb, dedi:
– Belə edəydin
Bayaqdan barı...

... Dadaş qayıtdı:
– Əllər yuxarı!
Diksindi qonaq.
Bayaqkı uşaq,
Sıxıb döşünə
Qoşalüləni,
Deyir: – Tərpənmə,
Vuraram səni!
– Dadaş, ay Dadaş,
De, bu nə işdir?
– Artıq danışma,
Qabağa düş bir!

Qapıya çatdı,
Dil tökdü, ancaq,
Öz inadından
Dönmədi uşaq.
Qonaq yavaşca
Qapıya çatdı
O, tez əlini
Dəstəyə atdı,
Örtdü cəld onu.
Qoydu otaqda
"Qardaş oğlunu".
Dadaş şığıdı
Tez pəncərəyə,
Qışqırsın: – Tutun,
Qoymayın! – deyə
Amma nə gördü?
Gözləmədiyi
Bir səhnə gördü:
Beş-on sərhədçi
Tutub qonağı.
Əsir qonağın
Dili, dodağı.
Çəkdilər onu
Evə bir təhər,
Girdi qapıdan
Yaralı Səfər,
Dedi: – Bu nədir
Əziz qardaşım?
Yetim deyilmiş
Mənim Dadaşım.
Qonaq itirdi
Tamam özünü.
Səfəri görcək
Sildi gözünü,
Diqqətlə baxdı.
Bu ki, yoldakı
Haman axsaqdı...
– Ata! – çığırdı

Dadaş gülərək.
Atayla oğul
Öpüşdü bərk-bərk.
Axtaran zaman
Qonağı birdən.
Bir kağız çıxdı
Onun cibindən.
Dadaşın rəngi
Oldu sapsarı,
Kim vermiş ona
Bu kağızları?
Sinif yazısı.
Mənim "atam", – bəs?!
Qonağa baxdı
Sərhədçi tərs-tors
Dedi: Aydındır
Bizə məsələ.
Casus yazını
Keçirmiş ələ.
Bilmiş neçidir,
Hardadır Səfər,
Neçə nəfərdir
Evindəkilər.
Kənddə qalıbdır
Bircə övladı,
Dadaşdır adı.
Bilmiş beş aydır
Gəlmir məktubu,
Bir casus üçün
Az şeydirmi bu?
Yaxşı ki, Səfər
Yolda çaşmayıb,
Kim olduğunu
Ona açmayıb.
Qonaq qabaqda
Bağlı qolları,
Onlar yol aldı
Körpüyə sarı.

QARDAŞLAR

Qardaşlar deyə
Çağırardılar
Həyətdə bizi.
Qardaşlar deyə
Çağırardılar
Hər üçümüzü.
Yaramaz bir iş
Görsəydik əgər.
Xəbər verənlər
Deyəcəkdilər:
"Daş ilə vurdu,
Şüşəni qırdı.
Aşağı birbaş
Qaçdı üç qardaş".
Yaxşı işimiz
Düşərdi dilə.
Bunu görənlər
Deyərdi belə:
"Nə gözəl, baxın,
Görün dam tikib,
Elə bil böyük –
Bir adam tikib.
Bütün uşaqlar
Bacaraydı kaş!
Yaşa üç qardaş!.."
Bəli, adımız
Düşmürdü dildən.
Qardaş kimiydik –
Əli, Həsən, mən.
Həsən ucaboy,
Enlikürəkdi.
Əli bir azca
Ondan gödəkdi.
Amma hamıdan
Əli zirəkdi.

Bir neçə söz də
Deyim özümdən:
Boyda hamıdan
Kiçik idim mən.
Amma dəcəldim,
Şıltaqdım yaman.
Yerimdə rahat
Durmazdım bir an.

Qardaşlar deyə
Çağırardılar
Həyətdə bizi.
Qardaşlar deyə
Çağırardılar
Hər üçümüzü.
Bir yerdə getdik
Məktəbə də biz.
Yaman sevindi
Ürəklərimiz.
Məktəbli olduq
Dedik bu gündən.
Məktəbli olduq –
Əli, Həsən, mən.

Beləcə illər
Bir-bir ötüşdü,
Keçdikcə günlər
Biz yaşa dolduq.
Boylu-buxunlu
Oğlanlar olduq.
Dostumuz kitab,
Sevdiyimiz dərs,
Elmə, sənətə
Göstərdik həvəs.
Keçdikcə günlər
Dolurduq yaşa.
Əhsən deyərdi

Bütün görənlər
Bu üç qardaşa.
On doqquz yaşa
Çatdıq hərəmiz
Arzular səma,
Arzular dəniz!
Biz üç qardaşın
Birisi şair,
Birisi həkim,
Biri mühəndis,
Olmaq istədik.
Amma...
Bir səhər
Gurladı toplar
Uçdu mərmilər.
Amma, bir səhər
Ana Vətənə
Yayıldı xəbər:
Qoy mərd igidlər
Olsun səfərbər!
Yerdən od yağır,
Göydən qurğuşun.
Düşmən göndərir
Doğma torpağa
Nə qədər qoşun...
Düz keçə-keçə,
Dağ aşa-aşa,
Çatdı bu xəbər
Biz – üç qardaşa,
Çatdı bu xəbər
Yersiz, vədəsiz!
İşə baxın siz!
Birisi şair,
Birisi həkim,
Biri mühəndis
Olmaq istəyən
Bu üç dosta bax,

Bu üç qardaşa!
Verib baş-başa
Üzümüzdə kin,
Dedik ölməyə
İnan, sənin̂çin
Hazırıq, Vətən!
Əli, Həsən, mən
Bir səhər çağı
Ayrıldıq eldən.
Bir səhər çağı
Əli, Həsən, mən,
Yenə yan-yana,
Yenə qol-qola,
Odlu cəbhəyə
Düzəldik yola.
Düzləri keçdik,
Dağları aşdıq,
Ana torpağı
Gəzdik, dolaşdıq.
Xaraba kəndlər,
Şəhərlər belə
Alov içində
Gəldilər dilə:
– Qardaşlar, – dedi
Qurtarın bizi,
Toplar dağıtdı
Ürəyimizi!
Gördük qocalar,
Uşaqlar belə
Dəhşət içində
Gələrək dilə:
– Qardaşlar, – dedi
Qurtarın bizi
Düşmən tutmasın
Vətənimizi!
Gördük ellərin
Qəzəbi coşmuş,

Xalq, Vətən! – deyə
Köməyə qoşmuş.
Biz də qoşulduq
Qəhrəmanlara.
Vətən torpağı
Düşməsin dara!
Öndə ölüm, qan,
Öndə duman, qan.
Əli, Həsən, mən,
Yenə də birgə,
Yenə yan-yana,
Düzləri keçdik,
Dağları aşdıq,
Bir qarış yerçin
Bir gün atışdıq.
Batdıq tər-qana
Yenə də birgə,
Yenə yan-yana,
Qürbətə düşdük,
Möhnətə, düşdük
Suyu da böldük,
Çörəyi böldük,
Aramızda tən,
Əli, Həsən, mən.
Yenə də birgə
Yenə yan-yana...
Bir gecə qızğın
Döyüşə girdik
Əvvəlcə birgə
Əl-ələ verdik,
Sonra partlayan
Odlu mərmilər
Ayırdı bizi.
Dan söküləndə
Görə bilmədik
Həsənimizi...
İtirdik onu,

Azərbaycanın
İgid oğlunu,
Durduq yan-yana
Əli, mən ...
Həsən...
Dönmədi geri
Davadan elə!
O gündən belə
Keçib neçə yaz,
Keçib neçə qış,
Amma Həsənin
Adı bir an da
Unudulmamış.
Keçib davadan
Neçə il olar,
Amma gələndə
Vətənə bahar
Əli ilə mən
Güldən, çiçəkdən
Yığıb bir qucaq,
Fikrə dalaraq,
Əyib bir anlıq
Çal başımızı,
Yad eləyirik
Həsənimizi,
Qardaşımızı!

İGİD ÖLMÜR

Yurduma bahar gəlib
Əynində yaşıl donu.
Quşlar nəğmələriylə
Qarşılayırlar onu.

Dağlardan qalxır duman,
Meşələrdə çən olur.
Bahar vaxtı təbiət
Gözəl olur, şən olur.

Göydə bulud toqquşur,
Şaqqıldayır ildırım.
Yerdə torpağa bax bir
Sinəsi şırım-şırım.

Tarlada adam dolu
Bir iş görür hərəsi,
Eşidilir uzaqdan
Traktorun nərəsi.

Lalələr qıpqırmızı
Yanaq kimi pörtüşür.
Nəğmə deyir cavanlar,
Çölə, düzə səs düşür:

Gəldi bahar,
Coşdu sular,
Budaq üstə qondu quş.
Əlli-qollu
insan oğlu
Alnı açıq, yaşamağa
doğulmuş!
Deyək, gülək
Azad əmək

Üzümüzü etsin ağ,
Anamızdır,
canımızdır,
Əzəl gündən bu təbiət,
bu torpaq!

Dağlar aşsın,
Qoy dolaşsın
Bu nəğməmiz dünyanı,
Doğma diyar
Yüz yaşadar
Əmək sevən, deyib-gülən
İnsanı!

...Nəğmə axır, havalanır,
Səs yayılır hər yana
Nə olmuşdur arx üstündə
Tək oturan oğlana?
Nə ətrafa salır nəzər,
Nə mahnını dinləyir,
Məgər bahar gəldiyini
O görməyir, bilməyir!..

...Çinar fikrə gedibdir
Əlləri çənəsində,
Görəsən nə dinləyir
Axan suyun səsində?
Dikilibdir gözləri
Meşələrə, dağlara,
O baxır uzaqlara.
Uca dağlar baş-başa
Yamaclar yaşıl, əlvan.
Çəkilməyir göydən heç
Qara bulud, ağ duman.
Göy sulara sallanıb
Cərgə-cərgə söyüdlər.
Çinar fikrə gedibdir,
Xatırlayır: bir səhər

Bax, burada, bu yerdə
Onlar ayaq saxladı.
Sirac nə söylədisə,
Sənəm yaman ağladı.
Sonra da hər ikisi
Çinarı qucaqladı.
Deyin, hardan anlayır
Beş yaşında bir uşaq
Atadan ayrı düşmək,
Yol üstündə öpüşmək,
Bu son görüşmək nədir?
Deyin, hardan anlayır
Çinar, nədir intizar?
Nə bilsin ki, çağırır
Atasını bu yollar.

Nə bilsin bu hıçqırıq
ayrılığın səsidir...
Uşağın, bir şirin söz,
Bircə alma bəsidir.

Deyin, hardan anlayır?
Çinar sandı ki, Sirac
Anasını danlayır,
O da baxıb ağladı,
Sənəmi qucaqladı...
Atasından küsdü də,
Ona acığı tutdu,
Ətəyilə Sənəmin
Göz yaşını qurutdu.

Onlar belə görüşdü
Sirac yola düşəndə.
Sənəm Çinarla döndü
Dolama yolla kəndə.
Onlardan kəsilmədi
Qonşuların ayağı.

Hər gələn bir dil ilə
Danışdırdı uşağı.
Sənəmə ürək verib
Çox dil-ağız etdilər,
Gecə oldu, qonşular
Evlərinə getdilər.
Siracın yatağında
Çinar yatdı bu gecə.
Kişi kimi uzandı
Uşaq lap əməllicə.
Özünü Sirac kimi
Böyük kişi sandı o,
Nə qəm-kədər anladı,
Nə ayrılıq qandı o.
Sirac evdən gedəli
Neçə həftə ötüşdü.
İndi hər gün Çinarın
Sirac yadına düşdü.
Şıltaq etdi, dözmədi,
Darıxdı uşaq yaman.
Bir yolluq atasının
Əl çəkdi yatağından,
Dedi: – Ana, yatmıram
Atamın yerində mən.
Özü gəlsin, dincəlsin
Öz yerində bu gündən!
Sənəm bağrına basdı,
Uşağı dilə tutdu.
O da ana qoynunda
Şıltağını unutdu.
Siracın ilk məktubu
Gəlib çıxdı bir səhər.
Ana-bala bütün gün
Şadlanıb sevindilər.
Amma, Çinar bilmədi
Bu şadlıq nə üçündür?
Atası evdən gedib,

Gəlməyir neçə gündür,
Elə kağız göndərir
Onlara beş gündə bir,
Sanki, o heç Çinarı
Gəlib görmək istəmir?

Beləcə kədi günlər,
Dolandı aylar, illər,
İki yol əvəz etdi
Fəsilləri fəsillər.
İki dəfə ağaclar
Yaşıl geydi, verdi bar.
İki dəfə yay ötdü,
İki dəfə qış, bahar,
İki dəfə isti də,
Sərin də, qar da gəldi.
İki dəfə uzağa
Uçan quşlar da gəldi,
Amma Sirac gəlmədi!
Söyləmədi: – "Dur, oğlum,
Qapını aç!" – gəlmədi.
Xeyli vaxt atasının
Şəkiliylə danışdı,
Danışdıqca pis oldu
Uşaq qəlbi alışdı.

Bəzən yaman deyindi
Küsdü, hamıdan küsdü,
Çəkilib bir kənarda
Gizli dodaq da büzdü.
Gün oldu danışmadı,
Yemədi, fəğan etdi.
O, dərdli anasının
Ürəyini qan etdi.
Uşaq dərdə dözmədi.
Yenə də ol üzmədi.
Günü-günə caladı,

Ayları ilə döndü.
Uşağın xəyalları
Başsız bir yelə döndü.
Çinar fikir içində
Nə dindi, nə danışdı.
Onun uşaq ürəyi
Min həsrətlə alışdı
Neyləsin ki, qəlbində
Dərdi vardı bir aləm;
Oxunurdu uşağın
Gözlərində kədər, qəm.
Bozən də atasından
Əli tamam üzüldü.
Bəzən fikir içində
Dodaqları büzüldü.
Hərdən çəkib başına
Yorğanını gizlicə,
Ürəyində Siracla
Söhbət etdi, gör necə.
Düşünərdi: atası
Qayıdacaqdır daha...
Yenə ümid edərdi
Açılacaq sabaha.
Günlər, həftələr, aylar
Bir-bir belə ötərdi;
Tükənmək bilmədi heç
Kiçik Çinarın dərdi.
Sizə Kimdən söyləyim,
Çinarın atasından;
Ulduzlu papağından.
Qayışlı çantasından,
Əynindəki şineldən,
Əlindəki tüfəngdən,
Sinəsində çırpınan
Arzu dolu ürəkdən.
Qəzəbli gözlərindən,
Alovlu sözlərindən,

Əsgər olduğu sizə
Deməsəm də bəllidir.
Burda insan ömrünü
Dəqiqələr həll edir.
Göydən yağış yerinə
Alov, qurğuşun gəlir.
Sanki axan çay deyil,
Dalbadal qoşun gəlir.
Dörd tərəfə baxırsan
Qırmızıdır çöl, çəmən
Bunları əvvəlcə sən
Laləyə bənzədərsən.
Lalə deyildir amma,
İnsan qanıdır, bu qan.
Axıb ana torpağa
Min əsgər yarasından.
Sirac da biridir, bu
Ərlərin, əsgərlərin.
Ürəyində həsrəti,
Arzuları var dərin.
Dilində bir vətəndir,
Bir Sənəmdir, bir Çinar.
(Nahaq öz atasından
Şikayət edir – Çinar).
Düşündükcə onları
Əhvalı yaman olur
Ah çəkir, elə bil ki,
Ahı da duman olur.
Sirac gündə düşmənin
Başına od ələyir,
Bəndləri, süpərləri
Dağıdır, yox eləyir.
Qıy vurub səngərlərin
Üzərindən adlayır;
Şirin-şirin arzular
Yada düşəndə bəzən
Ürəyini odlayır.

O düşünür; "Oğlumun
Çatıbdır məktəb yaşı.
Böyüyübdür, çoxalıb
İndi dostu, yoldaşı.
Dərsə gedir indi o,
Yazı-pozu da bilər.
Ölməyib sağ qalarsam
Lap öz məktubu gələr.
Ah, Çinar, bircə oğlum,
Tez böyü, dirçəl oğlum!
Qoy mənə gəlsin qadan!
Geri dönsəm davadan,
Mən bilirəm neylərəm,
Gəlsəm evə söylərəm...
Dönməsəm, bircə oğlum.
Tez böyü, dirçəl oğlum!
Qoy ömrün uzun olsun,
Ananda gözün olsun.

Bilirəm ki, dəcəlsən,
Bilirəm ərköyünsən!
Amma əsgər oğlusan
Çinar balam, bu gün sən.

Unutma evimizdə
İndi bir sənsən kişi,
Kişi ağılla görər
Əziz balam, hər işi..."

Bu fikirlər Siracın
Başından kənar olmur.
Amma dönüb heç biri
Sənəmlə, Çinar olmur...

Bir gün oldu Siracın
Arzuları qırıldı.
Döyüş vaxtı döşündən
İgid əsgər vuruldu.

O, Vətənin, Sənəmin,
O, Çinarın yolunda,
Milyonlarla Çinar tək
Övladların yolunda.
Təkbaşına dağıtdı
Qarşıdakı səngəri,
Amma dönmədi geri.

Hücum etdi bir qoşun,
Yağdı sel tək qurğuşun,
Güllələr deşdi onu,
Canından keçdi onun,
Təkbaşına dağıtdı
Qarşıdakı səngəri
Çəkilmədi o, geri!
Can verəndə bircə yol:
– Ölürəm... Çinar, – dedi.
Sonra da kəsik-kəsik
– Əlvida...dost...lar, – dedi.
Yoldaşları, dostları.
Bir çinarın altında,
Yarpaqların altında
Ona qəbir qazdılar.
Üzərində "Əlvida,
Əziz Sirac!" yazdılar.
Sonra keçib hücuma
İrəli cuma-cuma
Sellər kimi coşdular,
Şir kimi vuruşdular.
Cəbhələri yardılar,
Siracın mərd adını
Döyüşə apardılar.
Səhərdən Çinar
Farağat deyil.
Dərsə gedəcək,
Zarafat deyil.
Hey bəzək verir

Özünə Çinar:
– Ana, yaraşır
Mənə bu paltar?
– Yaraşır, bala,
Boyuna qurban.
Di soyun daha,
Çox yorulmusan.
– Bax, kitablarım
çantaya olmur,
Yarısı dolur,
Yarısı dolmur.
Gülərək deyir
Oğluna ana:
– Hamısını sən
Yığma çantana.
Neyləyirsən ki,
Onları birdən?
Qaldıramazsan
Çantanı yerdən.
Bir "Əlifba" qoy,
Bir neçə dəftər.
Bax, bunlar sənə
Bu günlük yetər.
Di, gecdir soyun,
Yataq, dincələk.
Səhər məktəbə
Gedəsən gərək.
Dinməz-söyləməz
Soyunur Çinar
Ana qəlbində
Görün nələr var:

Dərd içində ağlayır
Ürəyinin yarası,
Yeddi yaşındadır bax,
İndi ciyərparası.
Gülür, şadlıq eləyir,
Böyük oğlan olubdur.

Çinara hər baxanda
Xatırlayır Sirac.
Bəzən ondan gizlicə
Ağlayır acı-acı.
İki aydır gəlməyir
Nə məktubu, nə özü,
Çinar ilə Sənəmin
Qapıda qalıb gözü.
Açılacaq, bax, səhər,
Məktəbə gedəcəkdir
İlk dəfə, uşaq səhər.
Əynində təzə paltar
Əlində də çantası
Bu gününü görmədi
Ancaq, yazıq atası...
Dilim-ağzım qurusun
Vurdularmı? Ya sağmı?
Evimizə bir daha
Görən qayıdacaqmı?
Qayıtsın bir ayaqsız?
Bir qolsuz, razıyam mən.
Qulluğunu elərəm
Nə gələrsə əlimdən!
Qoy ölməsin davada,
İşi çətin olmasın!
Oğlum yetim olmasın!

Çinarın sifətinə
Sürtür ana üzünü,
Uşaq açır gözünü:
– Elə bildim yatmısan?
Demə gözünü yumub
Anamı aldatmısan?
– Yatmamışam, ana can,
Deyirəm ki, bəs haçan
Atam qayıdacaqdır?
Yolu məgər uzaqdır?

Niyə hey ağlayırsan,
Elə ağlayan kimi
Məni qucaqlayırsan.
– Oğul, atan yazır ki,
Mən səni qucaqlayım,
Amma demir ağlayım.
– Bəs hardadır, biz gedək
Bəlkə onun yanına?
– Yox, o burdan uzaqdır,
Qurban olum, canına.
Qayıdacaq, darıxma
Harda olsa yubanmaz.
İstəyirsən, can bala,
Nağıl deyim, qulaq as!
Çinar, söylə, deyərək
Dirsəkləndi yerində
Sənəm dedi: – Çinarım,
Ağ günlərin birində
İki qonşu yaşardı
Dövlətləri, varları
Çoxdu, aşıb-daşardı.
Adları qırmızılar,
Bir də ki, ağlar idi.
Aralarında çöllər,
Dənizlər, dağlar idi.
Qırmızılar nə dava,
Nə də qan istərdilər.
Qardaş kimi yaşasın
Hər insan istərdilər.
Onların yeri böyük,
Özləri də çoxdular.
Xoşbəxt yaşayırdılar.
Azaddılar, toxdular.
Özlərininki idi
Dövlətləri, varları.
Öz əllərində idi
Bütün ixtiyarları.

Odur ki, qırmızılar
Yaşayırdı, gözəl, şən.
İndi ağlardan deyim,
Çinarım, qulaq as sən.
Ağlar da az deyildi.
Ölkədəki işləri,
Amma taraz deyildi
Ağalar yoxsulları
Ot kimi biçərdilər.
Yazıqların qanını
Ovucla içərdilər.
Bax, həmin bu ağalar
Yaman qudurdu bir gün.
Dedilər: – Nökər olsun.
Bizə bu dünya bütün!
Onlar qırmızılara
Yaman göz dikmişdilər.
Sərhəddə dəstə-dəstə
Qoşun da çəkmişdilər.
Deyirdilər: Qoy hamı
Qarşımızda qul olsun;
Min-min insan qırılsın.
Cibimizdə pul olsun!
Evləri, şəhərləri
Dağıdaq, viran qoyaq;
Oğulları atadan,
Ataları oğuldan
Ayrı, nigaran qoyaq.
Bunu Çinar eşitdi,
Dərin bir fikrə getdi.
Sənəm verməyib ara
Dedi: – Oğul, ağlara,
Nə deyim, bir yay günü
Quzğun kimi aldılar
Bu Vətənin üstünü.
Binaları sökdülər,
Sel kimi qan tökdülər.

Uşaqları beşikdə
Keçirdilər süngüyə,
Sən qırmızısan! – deyə
– Onların ataları? –
Deyə soruşdu Çinar.
– Əziz bala, atalar
Eşidib bu xəbəri,
Getdilər qurtarmağa
Bəladan bu elləri,
Kimi oğlunu öpdü.
Səhər çay qırağında...
Kimi də anasının
Uzanıb qucağında,
Əsgər atası haqda
İndi nağıl eşidir,
Daha böyük kişidir.
Çinar indi anladı
Nağılın mənasını,
Qucaqladı o, bərk-bərk
Sevimli anasını.
Xəyalından keçdi tez
Kənd yolu, çay qırağı,
Yadına düşdü bir-bir
Sənəmin ağlamağı...
Yadına düşdü bir-bir...
Amma, durdu ər kimi.
Dərin xoyala getdi
Böyük kişilər kimi.

Kim bilir ürəyindən
Nələr keçdi Çinarın.
Amma deyəsən əsdi
Balaca dodaqları.
Elə bil ki, uşağın
Bədənini basdı tər,
Neçə uzun olurmuş
Əzablı dəqiqələr!..

Sənəm, gözlərində yaş,
Qucağında Çinarı
Ovutdu yavaş-yavaş.

Son baharın səhəri
Baxın, necə gözəldir.
Ana təbiət necə
Mənzərələr düzəldir.
Dağ başında ağ duman
Nəhəng bir papaq kimi,
Üfüq al-əlvan olur
Qırmızı bayraq kimi.
Gecə od qalamışdır
Meşədə gözətçilər,
Ağappaq tüstü qalxır
Göy üzünə bu səhər.
Quşların şən nəğməsi,
Cəh-cəhi şirin olur,
Son baharın səhəri
Nə qədər sərin olur.
Yol qırağı yamyaşıl,
Ot üstə şeh damlası.
Həyətlərdə qızarır
Şirin payız alması.
Heyvaların ətiri
Tutub yolu, küçəni,
Qırmızı nar, turş zoğal
Yoldan edir keçəni.
Həyətlərdən birbəbir
Çölə çıxır mal-qara,
İş səsi, əmək səsi,
Çobanın tütək səsi,
Yayılır uzaqlara.
Evdəki evdə qalır,
İşləyən gedir işə.
Kəndin payız səhəri
Belə olur həmişə.

Amma bir gün də vardır, -
Onu çox sevir hamı.
Bu gün, məktəbə gedən
Uşaqların bayramı, –
Sentyabrın biridir.
Çinar gözləyir onu
Neçə ildən bəridir.

Dərsə gəlib bu səhər,
Oturub ön sırada.
Aman, nə qədər tanış
Uşaq vardır burada?
Bax, Adil, dəcəl Həsən,
Nuru da dərsə gəlib,
Ağıllanıb deyəsən.

Vay-vay, Gülərə bir bax,
Qonşumuzun qızına!
Elə bil səhər-səhər
Su alıbdır ağzına,
Gör necə taxta kimi
Qurudubdur özünü.
Necə də zilləyibdir
Müəllimə gözünü
Heç Kamalı görmürəm,
Yanımdaymış lap Kamal.
İki il birincidə
Qalıbdır o, dalbadal...
Beləcə başlandı dərs
Gəlin arzu edək biz,
Çinar, – ilk şagirdimiz
Dərsə göstərsin həvəs.
Dərələrdən keçmisən,
Təpələrdən aşmısan,
Bu eli, bu obanı
Kəndbəkənd dolaşmısan.
Gətirdiyin xəbərlər
Şad olubdur həmişə,

Qəm, kədər qəlbimizə
Yad olubdur həmişə
Qan-tər içində gəldin
Uzun-uzun yolları,
A poçtalyon, din barı!

Bu gün nə olub belə
Qaşlarını çatmısan?
Dərin fikrə getmisən,
Elə bil ki, yatmısan?
Dur qapılar açıqdır
Üzünə kəndimizdə;
Muştuluq verir hamı
Sözünə kəndimizdə.
Qan-tər içində gəldin
Uzun-uzun yolları,
A poçtalyon, din barı?!

Əlindəki o nədir?
Qorxa-qorxa tutmusan?
Bəxtəvər sahibini
Bəlkə də unutmusan?
Ver, onu biz oxuyaq.
Mətləbi bəlli olsun,
Yol gözləyəni varsa,
Deyək, təsəlli olsun,
Qan-tər içində gəldin
Uzun-uzun yolları,
A poçtalyon, din barı?!

Bəlkə, şad xəbər deyil,
Pis xəbər gətirmisən?
A poçtalyon, tez danış,
Bəlkə... bəlkə, bəlkə sən...

Alı kişi gəlir bax,
Kolxoz idarəsinə.
Poçtalyon dik atılır

Onun: – Salam! səsinə.
– Salam! A yoldaş sədr,
Bağışla, fikirliyəm.
Bir vacib söhbətim var,
İstəyirdim söyləyəm...
– Buyur, buyur içəri,
Xeyir olsun, nə xəbər? –
– Elə dərd ondadır ki,
Xeyir deyil bu səfər...
– Bəs nədir?
– Al, özün bax...
Oxuya bilmədi o,
Axıradək məktubu,
Hıçqırıqlar içində
Boğularaq dedi: – Bu,
Mənim belimi qırdı!
Elə bil gülləsini
Düşmən sinəmə vurdu:
"Sizin kolxozun üzvü
Sirac Süleyman oğlu,
Xalqımızın fədakar,
İgid, qəhrəman oğlu,
Böyük Vətən yolunda
Canını verdi qurban.
Başsağlığı verirəm
Bizim hissə adından.
Onun xatirəsinə
Əyirik başımızı.
Hər vaxt yad edəcəyik
döyüş yoldaşımızı!"
Alı kişi əsə-əsə
Pıçıldadı poçtalyona:
– Sən, Sənəmi görsən əgər,
Bu xəbəri demə ona.
Əgər məktub göndərsələr
Siracgilin hissəsindən,
O məktubu Sənəmə yox,

Əvvəl mənə gətirərsən!
Dərdli-dərdli qalxıb sədr
Yola saldı poçtalyonu.
Qoca qəlbi kövrək olur
Hıçqırıqlar boğur onu.
Gözlərindən yaş tökülür,
Sanki hər yan duman olur.
Deyirlər ki, kişilərin
Ağlamağı yaman olur.
Sonra durur aram-aram,
Gözlərindən silir yaşı.
Yetmiş illik ömür sürüb
Ağarmışdır çoxdan başı.
Ağlasa da, yaş töksə də
Qoca kişi gözlərindən,
Ürəyinə qürur gəlir
Komandirin sözlərindən:
"Sizin kolxozun üzvü
Sirac Süleyman oğlu,
Xalqımızın fədakar,
İgid, qəhrəman oğlu..."
Günlər vardır Alı bir an
Ayrılmazdı aynalıdan.
On altıyla yüz nəfərin
Qabağını saxlamışdı.
Əsir tutub pristavın
Əl-qolunu bağlamışdı.
Cavanlıqda bir vaxt vardı.
O da igid sayılardı.
Alı kişi yaxşı bilir
Qəhrəmanın şöhrətini.
Alı kişi yaxşı bilir
Qəhrəmanın hörmətini.
O, bilir ki, Vətən üçün
Qan axıdan, həlak olan,
İnsan ölmür!

O bilir ki, qəhrəmana
Min lülədən atəş açsan,
Vursan, ölmür!
O bilir ki, mərdin adı,
Min illərlə yaşayacaq,
Şöhrətini çox nəsillər
Ürəyində daşıyacaq.
Amma bilmir bu xəbəri
O Sənəmə desin necə?!
Odur, gedir, ürəyindən
Min bir fikir keçə-keçə.
Yazırlar, "Bilin, sizin
Mərd, fədakar yerlinizin
Adı indi qəhrəmandır".
Bəs Sənəmə öldüyünü
Necə desin? Bu yamandır?
Necə desin yana-yana
Bir qanundur, ölüm, itim?
Necə desin, Çinar, bala,
İnnən belə qaldın yetim?
Necə desin döyüş günü
Sinəsindən yaralandı?
Necə desin əbədilik
Çinarından aralandı?
Daha məndən soruşmayın
O, Sənəmə nələr dedi.
Sanmayın ki: – Heç darıxma,
Səbr et, qızım, gələr! – dedi.
Başında var qara örpək,
Yaxşı baxın Sənəmə siz.
Bu xəbəri bildiyini
Deməsəm də bilirsiniz.
Ay uşaqlar, ay uşaqlar,
Söz tapmıram deyim sizə.
Necə böyük aləm sığar
Sizin kiçik qəlbinizə!

Ürəyiniz göy üzü tək
Təmiz olur, gözəl olur.
Amma deyim, inciməyin,
Bir çoxunuz dəcəl olur.

Uşaqlıq da bir aləmdir.
Öz qanunu, qaydası var.
Zirəkliyin, çevikliyin
İnsana çox faydası var.

Mən demirəm atılmağı,
Düşməyi siz tamam atın.
Mən demirəm uşaq ikən
Böyüklərə gəlib çatın!

Oynamağı, şadlanmağı
Unutmayın bir an belə.
Bugünkü şən, zirək uşaq
Gözətçidir sabah elə.

Ürəyiniz göy üzü tək
Təmiz olur, gözəl olur.
Amma bəzən bir çoxunuz
Zirək deyil, dəcəl olur.

Budaqda quş yuva qurur,
Bir dəcəl vurur, uçurur.
Qan axıdır, qəsdə durur,
İnsafa gəl, insafa gəl,
Sən, ey dəcəl!

Girirsən bir sərin bağa,
Dırmanırsan şax budağa,
Başlayırsan doğramağa
İnsafa gəl, insafa gəl,
Sən ey dəcəl!

Evdə nənən qoca qarı,
Sənsən onun arzuları;
İncitmə gəl onu barı,
İnsafa gəl, insafa gəl,
Sən ey dəcəl!

Dostlar sənə qardaş, bacı,
Danışma heç acı-acı;
Bunun vardır bir əlacı:
Bir az düzəl, ağıla gəl,
Sən ey dəcəl!

Budur, məktəb həyətində
Oturmuşdur beş-on uşaq.
Mən bilmirəm nədən olmuş
Söhbətləri bundan qabaq.
Amma, Çinar əsəbidir,
Nəsə deyir o, Kamala.
Elə hirslə danışır ki,
Qışqıracaq lap az qala.
Kamal deyir: – Bir bəri bax,
Gəl danışma, dostum nahaq.
Əsgər desən, mənim qağam
Cəbhədədir, deyim sənə
Məktubunda yazıb dünən
Bir orden də aldım yenə.
Təkbaşına on düşməni
Vurub qağam.
Yazır hələ düşmənləri
Qıracağam!
Məktublarım gəlməsə siz,
Öldüyümü bilərsiniz...
Çinar dedi: – Hə... nə olsun!
Mənim atam... Atam vardır.
Cəbhədədir... Tək əlilə
On nədir ki? Gücü çatar
Yüz düşmənə!

– Gəl bunu da deyim sənə,
Yüz düşməni qıran əsgər,
Qağam kimi orden alar.
Bax, sənin də atan əgər...
– Nə bilirsən bəlkə alıb,
Yanındasan?!
– Orden almaq olsa asan,
Gündə birin alar qağam.
Yazır, hələ qəhrəman da
Olacağam...
Çinar dedi:
– Mənim atam...
Qəzəblənib coşdu Kamal!
– Elə durub, atam, atam
söyləyirsən!
Heç bilirsən nə deyirsən?
Qəzəbləndi Çinar da bərk,
Kamal sarı yeriyərək,
Dedi: – Yalan, yalan, yalan!
– Necə? Dayan!
– Çantasını açdı Kamal.
Hirsli-hirsli söylədi: – Al!
Bax! Atamın şəklidir bu!
Bu da onun son məktubu.
Ordenləri qoşa-qoşa
İndi, dostum, düşdün başa?
Məktub göstər görsün gözüm,
Şəkil göstər görsün gözüm,
Çinar, indi nədir sözün?!.
Qəhərləndi daha Çinar.
Söz tapmadı desin uşaq.
Doluxsundu, qəzəbləndi,
Yazıq-yazıq durdu ancaq,
Sanki Kamal köz qopardı
Ürəyinin yarasından.
Yavaş-yavaş keçdi Çinar
Uşaqların arasından.

Düşündükcə doldu gözü;
"Məktublarım gəlməsə siz,
Öldüyümü bilərsiniz..."
Yoldaşının bu sözləri
Ürəyinə saldı ləkə.
Məktub yoxdur, neçə vaxtdır
Məktub yoxdur, atam bəlkə?..
Qaça-qaça gəldi yolu,
Qəlbi dolu, gözü dolu.
Girdi evə... Anasından
Sormaq üçün bu sualı?
Bu nə işdir, sandıq üstdə
Əyləşibdir qoca Alı?
Sənəm onu görən kimi
Dodaqları əsə-əsə
Dedi: – Çinar, Alı baban
Qonaq gəlib bu gün bizə.
Çinar gəlib ədəb ilə:
– Alı baba, salam! – dedi.
Alı kişi doluxsunub:
– Yaxına gəl, balam, – dedi.
Qucaqladı Çinarı o,
Kəsik-kəsik dedi: – Qoçaq!
Babasının göz yaşını
Görmədi heç Çinar ancaq.
Sonra dönüb Sənəmə o,
Dedi: – Qızım, gedim daha.
Gedim, gərək hazırlaşaq
Biz sabaha.
Maşınımız dayanacaq
Qapınızdan aşağıda,
Sabah səhər gətirərsən
Özün ilə uşağı da.
Qoca durdu, aram-aram
Addımlayıb çıxdı çölə:
– Sizə hər gün gələcəyəm, –
Dedi, – qızım, innən belə.

Düz deyiblər... yaman gündə
Arxa çıxar el içindən,
Arxasız el su götürməz
Durna gözlü göl içindən.
Axıb gəldi kənd adamı
Çinargilə.
Cavan, qoca, hamı, hamı
Əzizlədi, tutdu onu
şirin dilə.
Günəş batdı, axşam oldu
Hey boşaldı, dolu otaq.
Keçdi gecə, xumarlanıb
Şirin-şirin yatdı uşaq...

Maşına bax, maşına
Düzülübdür dal-dala.
Bir ucu rayondadır
Maşınların az qala.
Rayonun mərkəzinə
Səhər axışır hamı.

Sanki şəhərə köçür
Bütün kəndin adamı...
Bu gün bazar günüdür,
Bayram ki, deyil, ana!
Niyə bütün camaat
Gedir belə rayona? –
Soruşur anasından
Heyrət eləyir uşaq.
Sənəm xəyal içində
Danışa bilmir ancaq.
Maşın arxada qoyur
Ağacları, kolları;
Sənəm gözüylə ölçür
Elə bil ki, yolları
Ona elə gəlir ki,
Sirac intizardadır.

Ona elə gəlir ki,
Sirac bu yollardadır.
Ona elə gəlir ki,
"Pobeda" yavaş gedir
Bəlkə də heç getməyir.
Bu yollar, dağ, daş gedir.
"Pobeda", tələs-tələs,
Siraca yetir bizi!
Bu ayrılıq, bu hicran
Üzdü ürəyimizi!
Tez yetir atasının
Görüşünə Çinarı,
Eşit məni, sən, barı!

Siz ey çöllər, çəmənlər,
Lalələr, yasəmənlər,
Sizdən bir xahişim var:
Yalvarıram, nə olar,
Ətir səpin yollara,
Şirin bir yuxu gəlsin
Ömrüm-günüm Çinara.
Unutsun gözündəki
Həsrəti, intizarı,
Rəhm eləyin siz barı!
Siz ey qara buludlar,
Uçunuz qatar-qatar
Günəş batsın bir anlıq,
Qoy çoxalsın qaranlıq,
Kölgələr sürünməsin,
Yağış yağsın, sel axsın,
Göz yaşım görünməsin!

Gəlib yetişdi,
Bütün maşınlar.
Meydançada bax,
Nə çox adam var.
Alı baba da
Maşından düşdü,

Bir kişi ilə
Gedib görüşdü.
Tutdu əlindən
Çinarın qoca.
Sənəmə dedi:
– Di, gəl dalımca.
Addım atdıqca
Sənəmlə, Çinar,
Tez yol verirdi
Bütün adamlar.

Meydanın ortasında
Bir daş vardır lap böyük.
Üstündə qara rəngli
İpək parçadan örtük,
Qarşısında bir masa.
Deyəsən bütün rayon
Yığışıbdır iclasa.
Sənəm ilə Çinarı
Gətirdilər buraya.
Toplaşanlar aldılar
Onları tez araya.
Kimi Çinarı öpdü.
Yana tutdu üzünü,
Kimi zorla saxladı,
Ələ aldı özünü.
Hamı yaxın, mehriban,
Hamı qəmli, qüssəli...
Alı kişinin əli
Birdən yuxarı qalxdı,
Qoca Çinara baxdı,
Dedi: – Başlanır iclas,
Oğlum, yaxşı qulaq as.
Sonra tutub üzünü
Camaata sarı o,
Süzüb adamları o,
Dedi: "Bizim dağlardan

Bir qartal uçdu getdi,
Vətənin göylərində
O qanad açdı getdi.
Mərdlik ilə dolandı
Çox ölkəni, çox yeri,
Sinəsindən vuruldu,
Amma dönmədi geri.
O, bizim bu dağların,
Bu doğma torpaqların,
Qızların, gəlinlərin,
Bu ölkənin, bu yerin,
Adını uca tutdu!
Döyüşlərə girəndə
O, qorxunu unutdu.
Bir zərbədə on yağı
Vurdu qəhrəman kimi.
Vətənin keşiyində
Durdu qəhrəman kimi!

O, bir daha bu kəndə,
Bu elə dönməyəcək
Lakin onun heç zaman
Ocağı sönməyəcək!
Deməyin ki, oğlu var,
Çox kiçikdir, uşaqdır.
Siracın ocağını
Çinar yandıracaqdır!..
Meydança dalğalandı
Dəniz kimi bir anda.
Hamı Çinara baxdı, –
Susan da, ağlayan da...
Sonra qara örtüyü
Açdılar yavaş-yavaş,
Mərmər heykəl önündə
Əyildi yüzlərlə baş.
Çinar heyrət içində
Heykələ baxdı, baxdı.

Nə hıçqırıb ağladı,
Nə gözündən yaş axdı.
O, yeriyib irəli
Qucaqladı heykəli
Sonra da anasının
Gəlib əlini tutdu,
Örpəyinin ucuyla
Göz yaşını qurutdu...

Ana-bala əl-ələ
Yardılar izdihamı,
Çinar ilə Sənəmə
Hörmətlə baxdı hamı.

...Çinar fikrə gedibdir
Əlləri çənəsində...
Çiçəyə bax, gülə bax
Torpağın sinəsində.

Ana təbiətin çox
Hikmətləri var imiş,
Dinlə, bu axar sular
Böyük bəstəkar imiş...

Bir gör necə dolanır,
Aylar, illər dalbadal,
Necə böyüyüb Çinar,
Necə böyüyüb Kamal.
Hərəsi bir adamdır,
Hərəsi bir kişidir,
Onlar dost olub yaman
Can deyir, can eşidir.

Sənəmin də quruyub
Əbədilik göz yaşı.
Çinardan deyir ana,
Kəlməbaşı, sözbaşı.

Xatirini istəyir
Bütün kənd camaatı,
Deyir: – Kəndsiz, Çinarsız
Neyləyirəm həyatı?

Ağarsa da qar kimi
İndi saçı, saqqalı,
Bizə dayaqdır yenə
Qoca babamız Alı.

Hər evdən, hər küçədən
Görürsən gəlir səsi,
Kənddə artıb, çoxalıb
Nəvəsi, nəticəsi.

Adamlar da dəyişib
Dəyişdikcə bu həyat.
Deyirsən cavanlaşır
Gündən-günə camaat...

... Çinar fikrə gedibdir
Əlləri çənəsində,
Çiçəyə bax, gülə bax
Torpağın sinəsində.

Lalələr qıpqırmızı
Yanaq kimi pörtüşür,
Nəğmə deyir cavanlar
Çölə, düzə səs düşür.
Gəldi bahar,
Coşdu sular
Budaq üstə qondu quş
Əlli-qollu
İnsan oğlu
Alnı açıq yaşamağa
doğulmuş!

KİTABDAKILAR

Ön söz 4

VƏTƏN

Vətənim 11
Mənə belə gəlir ki 12
Vətənimiz 14
Azərbaycanımız 15
Bu ellərdə 16
Bakı 16
Bakı 18
Quba 18
Lənkəran 19
Sumqayıt 20

MÜHARİBƏ

Min beş yüz əlli!.. 21
Xatirat 22
Onun qızı 25
Dostum 26
Sevir, sevməyir 28
Eşqimiz nağıl olsun 28
Bahar gəlib 30
İki kəlmə 30
Ay doğanda gələrdi!.. 31

LİRİK ŞEİRLƏR

Etiraf 33
Biləydi 34
Yana-yana 35
Mən cavandım, sən də uşaq 35
Gözəllər 37
Deyirsən ki... 39
Əlindən 39
Sirr 40
Qaynaqçı 40
Gedər 41
Gənclik arzusu 42

Olub 44
Ola bilməz 44
Yazmazdın 45

MÜXTƏLİF ŞEİRLƏR

Mirzə Cəlilə 46
Arzular 48
Bir dəstə gül iylə 50
Elə bil ki... 51
Ayaq səsləri 53
Niyə görə? 55
Söhbət 56
Görürük 57
Ay dost! 57
Sual 58
Başımız üstündə 58
Gedirik 59
Yorulmamışam 61
Bəs mənim balam hanı 62
Bənna 67
Gərək 69
Sözə bax 70
Qulaq as 71
Bizim dünya 72
Günlər axsın 73
Sərçə 77
Qızlar 81
Tənqid 82
"Tənqid" 82

TƏBİƏT

Əgər bilsəydi... 83
Yağış yağır 83
Güllər 84
Söyüd 85
Həyat verək 85
Sual 86
Dəniz 87
Ceyran 88
Sevmirəm buludları 88

Xəzər "Qocalır"... 90
Qayalar 91

NƏĞMƏLƏR

Sən mənim, mən sənin 93
"Lirik mahnı" 94
Nə olar? 95
"Laylay" 96
Gəldi bahar 96
Vaxt olar... 97
Lirik mahnı 97
Lirik mahnı 98
Badamlı 99
Gəncliyim 100
Qəzəl 101
Olmaz! 102
Az gəlir 102
Yalvara-yalvara 102
Sənin üçün 103
Deyin 104
Göz görüb 104
Sən düzə çıxanda 105
Çağır gəlsin 106
Bilə-bilə 106
Kimə söyləyim? 107
Fəqanla insafın mahnısı 108
Sürəyya 108
Neftçilər 109
Məzəli mahnı 110
Gecə mahnısı 111
Məzəli mahnı 112
Mahnı 114
İnşaatçılar mahnısı 114
İsmayıllı mahnısı 115
Çay mahnısı 116
Biri bizim, biri sizin deyilmi? 117
Olub 117
Sülh mahnısı 118
Gəldi bahar 119
Neyləsin? 119

Olar 120
Kəndimiz 121
Kəndimiz 121
Əziz Vətən 122
Bakı 123
Səhərim! 124
Nəğmə 125

UŞAQLAR ÜÇÜN

Dərs səhəri 126
Uşaqlara 127
Ceyran qızıma 128
Oğluma 129
Sizin səsiniz 130
Əli gülsün! 131
Tapmacalar 134

POEMALAR

Məni bağışlayın 138
İçərişəhər 146
Karvan gedir... 156
Qonaq 167
Qardaşlar 183
İgid ölmür 189

ZEYNAL CABBARZADƏ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"AVRASİYA PRESS"

BAKI-2005

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Azər Quliyev*

Korrektor: *Günel Hacıbəyli*

Yığılmağa verilib 30.09.2004. Çapa imzalanıb 29.03.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 14. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 63.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.